# İbtidai siniflərdə orfoqrafiya və orfoepiyanın mənimsənilməsi yolları

**Fəridə Akif qızı Səfərəliyeva**
*ADPU-nun «Azərbaycan dili və onun tədrisi texnologiyası» kafedrasının dosenti*
**E-mail:** f.safaraliyeva@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., prof. N.Ə. Abdullayev,
p.ü.f.d., dos. P.Ş. Paşayeva

**Açar sözlər:** orfoqrafiya, orfoepiya, ibtidai sinif, şifahi və yazılı nitq
**Ключевые слова:** орфография, ортоэпия, начальная школа, устная и письменная речь
**Key words:** orthography, orthoepy, primary school, oral and written speech

Böyük dramaturq C. Məmmədquluzadə vaxtı ikən demişdir: "Əgər məndən soruşsalar ki, dövlətdən, naz nemətdən nəyin var, qürur hissi ilə deyərdim: Bütün kainatı, yer üzünü təsvir və tərənnün etməyə qadir sözüm, ana dilim var". Hər bir xalqın ana dili onun varlığının, milli mənliyinin göstəricisi, tarixi abidəsidir. Bu abidənin bünövrəsi, kökü ibtidai siniflərdən başlanır. Xalqın tarixi keçmişi, milli adət-ənənəsi onun dili ilə qorunub saxlanılır.

Ədəbi dilin sabit və vahid tələffüz normalarının müəyyənləşdirilməsi, həmin normalara əsaslanan qaydaların danışıq və oxuya tətbiqi nitq mədəniyyətinin inkişafı baxımından olduqca vacibdir. Şifahi dilin fəaliyyət dairəsinin genişləndiyi indiki zamanda ədəbi tələffüz normalarını gözləmək daha böyük əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, orfoepik qaydaları öyrətməyin əsası məktəbdə qoyulur. Deməli, ibtidai sinif müəllimi özü bu qaydaları dərindən bələd olmalı, həmçinin öz nitqində səhvə yol verməməlidir.

Ədəbi tələffüz üzrə iş yalnız ədəbi dilin normalarını göstərmək, dili qorumaq, ünsiyyəti asanlaşdırmaq və s. mənalarda qiymətləndirilməməlidir. Ədəbi tələffüz orfoqrafiya ilə çox sıx əlaqədardır. Dilimizin müasir inkişaf mərhələsində orfoepik normalar yazı qaydaları qədər əhəmiyyət daşıyır. Bəs ibtidai siniflərdə orfoqrafiyanın tədrisi hansı normalar əsasında öyrədilir?

Orfoqrafiya tədrisinin metodikası bir tərəfdən pedaqoji və ümumi metodik prinsiplər, digər tərəfdən də orfoqrafiyanın öz prinsipləri üzərində qurulmalıdır. Bu işdə ən mühüm pedaqoji prinsip tərbiyə ilə təlim arasında əlaqə yaratmaqdır. Orfoqrafiya təliminin dilin qayda və qanunları ilə yəni qrammatika ilə bağlamağın da çox mühüm rolu vardır. Çünki yazı qaydaları qrammatik qanunlara istinad edir. Qrammatika orfoqrafiyaya düzgün istiqamət verir desək, yanılmarıq. Buna görə yazı qaydalarını mükəmməl öyrənməyə qrammatikanı yaxşı bilməklə nail olmaq olar. İbtidai sinif müəllimi tədris zamanı nitq fəaliyyətinin ayrı-ayrı cəhətləri üzərində ətraflı dayanmağa və bu cəhətləri şagirdlərə dərk etdirməyə xüsusi fikir verməlidir. O, məşğələlərdə dilin danışıq səslərinə aid bəhsini-fonetikanı, dilin leksikasının zənginliyini, qrammatikanın morfologiya və sintaksis kimi şöbələrini, dilin ifadə vasitələrini (üslubiyyatı) və nəhayət, nitqi yazılı şəkildə ifadə edən vasitələri (orfoqrafiya və durğu işarələrini) şagirdlərə mənimsətməlidir.

Azərbaycan dili təliminin ən mühüm vəzifəsi şagirdlərə orfoqrafiya və durğu işarələri üzrə möhkəm vərdişlər aşılamaq, həmin vərdişlərin köməyi ilə onları qrammatik hadisələri şüurlu

dərk etməyə alışdırmaq, onlarda şifahi və yazılı nitqi inkişaf etdirmək, doğma dilə maraq və məhəbbət tərbiyə etməkdən ibarətdir. Azərbaycan dilinin orfoqrafiya qaydaları o zaman daha şüurlu mənimsənilə və yadda qala bilər ki, həmin qaydalar fonetika, söz yaradıcılığı və morfologiya bəhsləri ilə əlaqəli şəkildə mənimsənilmiş olsun. Məsələn, saitlərdən danışarkən fonetikada saitlərin orfoepiya və orfoqrafiya qaydalarının öyrənilməsi həm bu qaydaların anlaşılmasına, yaddaşda möhkəmlənməsinə kömək edir, həm də saitlərin daha dərindən mənimsənilməsinə gətirib çıxarır.

İbtidai siniflərdə ana dilinin tədrisinin başlıca prinsipi nitq inkişafı olduğundan qrammatikanın tədrisi prosesində də şagirdlərin nitqinin və təfəkkürünün inkişafına geniş imkanlar açılır. Qrammatik biliklər şagirdlərin nitqinin inkişafı üçün elmi bünövrə rolunu oynayır. Bəzi qrammatik qaydalar eyni zamanda orfoqrafiya təlimi və nitq inkişafına xidmət edir. Ona görə də qrammatikanın tədrisi prosesində nitq inkişafı üçün xüsusi saat ayırmağa ehtiyac yoxdur. Hər bir dərs ədəbi tələffüz, leksika, söz yaradıcılığı, üslubiyyat və ya rabitəli nitqin inkişafı üzrə işin aparılması imkanlarına malikdir.

Uşaqlar nitqdə çox söz işlətmələrinə baxmayaraq onun arxasında duran əşya və hadisəni təsvir etməkdə çətinlik çəkirlər. Sözün mətn daxilindəki mənasına fikir vermir, bəzən ən sadə sözləri dəqiq mənasında başa düşmürlər. Buna görə də I sinifdən başlayaraq hər bir sözün, hətta şagirdlərə tanış sözün mənası üzərində fikirləşmək, onu başa düşmək vərdişi üzərində işləmək lazımdır. Bu məqsədlə də aşağıdakı iş növlərindən istifadə etmək çox əhəmiyyətlidir:

1. Tanış sözlərin mənalarını dəqiqləşdirmək.
2. Sözün məcaziliyi və çoxmənalılığı üzrə işlər.
3. Leksik və frazeoloji vahidləri nitqdə işlətmək.
4. Sinonimika, sözün üslubi çalarları üzrə işlər.

Orfoqrafiya təlimi ədəbi tələffüzün, orfoepik normaların öyrədilməsi ilə paralel getməlidir.

Orfoepik vərdişləri geniş mənada anlamaq lazımdır. Bunu yalnız vurğunu düzgün işlətmək, yaxud sözü doğru tələffüz etmək mənasında deyil, eyni zamanda ədəbi dilin saflıq və gözəlliyini saxlamaq, onun ahəngdarlıq və rəngarəngliyini gözləmək lazımdır. Orfoepik vərdişləri möhkəmləndirmək üçün birinci şərt şagirdlərdə həmişə məzmunlu, düzgün və mədəni danışıq vərdişləri yaratmaqdır. İkinci şərt müəllimin saf ədəbi dilə sahib olmasıdır. Üçüncü şərt isə orfoepik vərdişləri tərbiyə etmək üçün müntəzəm surətdə aşağıdakı çalışmaların aparılması məqsədəuyğundur:

a) Şifahi nitqin doğru və ifadəli olması üzərində iş;

b) şagirdlərə yalnız yaxşı şeir parçalarını deyil: eyni zamanda bədii, elmi-kütləvi nəsr əsərlərinin nümunələrini də əzbərlətmək;

c) şagirdlərin oxu mədəniyyətini artırmaq üzərində müəllimin rəhbərliyi;

d) ayrı-ayrı şagirdlərin nitqlərində olan qüsurları aradan qaldırmaq üçün onlarla məşğul olmaq;

e) şagirdlərin şifahi və yazılı nitqində olan qüsurları sistematik surətdə aradan qaldırmaq;

f) orfoepik məşğələlərdə əyani vəsaitlərdən: bədii, elmi-kütləvi əsərlərdən, orfoepik cəhətdən gözəl nitq nümunələrini əks etdirən cədvəllərdən istifadə olunmalıdır.

IV sinif Azərbaycan dili dərsliyində verilmiş dil qaydasına nəzər salaq:

Bəzi sözlərdə şəkilçilərin deyilişi ilə yazılışı fərqlənir:

la$^2$ ⟶ vicdanla [vicdannan]

laş$^2$ ⟶ ağırlaşdı [ağırraşdı]

dan$^2$ ⟶ qadından [qadınnan]

Daha sonra tapşırıq 15-də dörd sözdən birində şəkilçinin deyilişinin fərqli olmasını gös-

tərmək şagirddən tələb olunur:

A. üzümçü B. üzümdən C. üzümdə Ç. üzümü
A. birləş B. birdən C. biri Ç. birinci
A. işsiz B. işdə C. işçi Ç. işlə [2; 27].

İbtidai sinif müəllimi ən çox öyrədilməsi məsləhət görülən orfoepik normaları tədris prosesində nəzərdən qaçırmamalıdır;

1. İkinci şəxsin xəbərlik şəkilçisi; həm -[sınız, [-siniz], [-sunuz], [-sünüz], həm də [-sız], [-siz], [-suz], [-süz] şəklində tələffüz olunur.
2. Saitlə bitən feillərə qeyri-müəyyən gələcək zaman şəkilçisi artırıldıqda, sait düşərək heca ixtisar olunur. Məsələn: [işləyərəm], [işlərəm]
3. Feilin xəbər forması gələcək zamanda l şəxsin təki 2-ci cür olur; [alacağam], [alacam]
4. Nəqli keçmiş zamanda ll şəxsin təkində xəbərlik şəkilçisi gəldikdə ş samiti tələffüz olunmur. Məsələn; [gəlmişşən], [gəlmisən]
5. İsmin çıxışlıq halı işləndikdə n, m samitləri gələrsə, [-nan], [-nən] kimi tələffüz olunur. Məsələn; [sənnən], [mənnən], [atamnan] və s.

Müəllim yalnız tək ana dili dərslərində deyil, bütün dərslərdə normalara uyğun danışmalı və şagirdlərində nitqlərinə nəzarəti gücləndirməlidir.

Qrammatikanın mənimsənilməsi və ya orfoqrafik vərdişlərin möhkəmləndirilməsi ilə əlaqədar olaraq şagirdlərə xüsusi formalarda olan bəzi tapşırıqlar verməlidir. Bu tapşırıqlar şagirdlərin bilik və vərdişlərində ortaya çıxan nöqsanlarla əlaqədar olaraq verilir. Belə tapşırıqlar uzun və yorucu məsləhət saatları vasitəsi ilə deyil, müəllimin qısa və məzmunlu izahatı ilə aparılır. Azərbaycan dilinin tədrisi zamanı müxtəlif çalışmaların yerinə yetirilməsi şagirdlərdə müşahidəçilik, diqqətlilik, fəallıq, müstəqillik, yaradıcılıq kimi keyfiyyətlərin tərbiyə olunmasına güclü təsir göstərir.

Orfoqrafiya təliminin başlıca vəzifəsi şagirdləri orfoqrafik bilik, bacarıq və vərdişlərlə silahlandırmaqdır. Yazılı və şifahi nitq inkişafı, zəngin lüğət ehtiyatı, düzgün tələffüz, düzgün cümlə qurmaq vərdişləri - nitqin bu sahələri öz-özlüyündə savadlı yazmağa kömək göstərir. Prof. Ə. Əfəndizadə haqlı olaraq yazırdı ki, “məktəb proqramlarının tələbi üzrə, ana dili təliminin qarşısında qoyulan başlıca vəzifə şagirdləri məhz ədəbi dilə yiyələndirməkdir”. Müəllim əgər ədəbi dili bilərsə, leksik, qrammatik, orfoqrafik, orfoepik normalara da əməl edəcək. Orfoqrafiyada aid elə bir qayda yoxdur ki, o qrammatika ilə əlaqədar olmasın, onun bu və ya digər qaydalarına əsaslanmasın. Bu səbəbdən də məktəblərimizdə orfoqrafiya dilimizin qrammatikası ilə əlaqəli şəkildə tədris olunur. Qrammatik bilikləri şüurlu mənimsəyən şagird orfoqrafik qaydalara da öz yazısında düzgün əməl etməklə bərabər, həmin qaydaları izah etmək kimi bacarıq və vərdişlərə yiyələnir.

Məktəblərdə bəzi müəllimlər orfoqrafiyanın təlimində yazı qaydalarının mənimsədilməsini sırf orfoqrafik işlərlə məhdudlaşdırırlar, ən çox üzündənköçürmə, imla yazdırmağa səy göstərirlər. Dil faktlarının təhlilinə, yazı təliminin nitq inkişafı üzrə işlərlə əlaqələndirməyə o qədər də diqqət yetirmirlər. Halbuki ibtidai sinifdə orfoqrafik təhlil aparılsa, şagirdlərdə düzgün yazı vərdişləri formalaşmış olar.

Orta məktəbdə savad uğrunda mübarizədən danışarkən şagirdlərin yalnız orfoqrafiya və durğu işarələrini düzgün mənimsəmələrini nəzərdə tutmaq kifayət deyildir: bunlarla birlikdə məktəbin vəzifəsi şagirdlərə düzgün, ədəbi, şifahi və yazılı nitq bacarığı da qazandırmaqdır.

**Məqalənin aktuallığı.** İbtidai siniflərdə orfoqrafiya və durğu işarələri, eləcə də orfoepik normalara ciddi riayət olunması ilə bağlı məsələlər ön plana çəkilmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ibtidai siniflərdə orfoqrafiya və orfoepiya ilə bağlı

məsələlərin tədrisi yolları elmi yenilik kimi verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ibtidai sinif müəllimləri, eləcə də gənc tədqiqatçılar istifadə edə bilər.

## Ədəbiyyat

1. Abdullayev N. Orfoqrafiya və orfoepiya məsələləri. Bakı, 1985.
2. İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Ümumtəhsil məktəblərinin Azərbaycan dili 4-cü sinfi üçün (tədris dili kimi) fənni üzrə dərslik. Bakı, 2019.
3. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2011.
4. Quliyeva S., Balıyev H. Azərbaycan dili təlimi və nitq inkişafı metodikası. Bakı, 1993.

**Ф.А. Сафаралиева**

## Способы освоение орфографии и орфоэпии в начальной школе

## Резюме

Обучение орфография должно идти параллельно с обучением литературному произношению и ортоэпическим нормам. Основная задача обучения орфографии – вооружить учащихся орфографическими знаниями, навыками и практиками. Правописание азербайджанского языка может быть осознано и запомнено только в том случае, если эти правила усвоены в связи с фонетикой, словообразованием и морфологией.

**F.A. Safaraliyeva**

## Ways to master orthoepic and orthography in elementary school

## Summary

Spelling training should go besides with the teaching of literary pronunciation and orthoepic norms. The main task of teaching spelling is to equip students with spelling knowledge, skills and practices. The orthography of the Azerbaijani language can be understood and remembered only if these rules are mastered in connection with phonetics, word formation and morphology.

**Redaksiyaya daxil olub:** 03.04.2021